**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2016-cı ildə görülmüş işlərlə bağlı hesabat**

Dövlət Statistika Komitəsi ölkədə rəsmi statistika siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi, statistika orqanları tərəfindən istehsal edilən statistik məlumatların müasir tələblərə uyğun hazırlanmasını, ölkədə statistika sisteminin təkmilləşdirilməsi və inkişafı məsələlərini 2016-cı ildə də diqqət mərkəzində saxlamış və öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş 2016-cı il üçün statistik işlər proqramı, habelə metodoloji və məlumat istifadəçiləri ilə iş planı, iqtisadi təhlil üzrə rüblük iş planları, “2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı” və “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” üzrə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində qurmuşdur.

Hesabat dövründə Dövlət Statistika Komitəsində keyfiyyətin idarə edilməsi sistemi İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun olaraq təkmilləşdirilmişdir. Rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində növbəti uyğunluq sertifikatının əldə olunması istiqamətində “SGS Azeri LTD” audit şirkəti ilə birlikdə müvafiq tədbirlər həyata keçirilir. Təşkilati işlərin təkmilləşdirilməsi və cari işlərə operativ yanaşmanın təmin edilməsi, qarşıda duran vəzifələrin vaxtında və operativ icra edilməsi, statistik vahidlərlə qarşılıqlı əlaqələrin genişləndirilməsi və onlarla mütəmadi olaraq təlimatı müşavirələrin keçirilməsi, vətəndaşların müraciətlərinin vaxtında cavablandırılması, əməkdaşların etik davranış qaydalarına riayət edilməsi və onların bilik və bacarıqlarının artırılması üçün zəruri tədbirlər görülmüş, sözügedən mövzular üzrə Komitə aparatının və yerli statistika orqanlarının əməkdaşları üçün təlim kursları təşkil edilmişdir. İSO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğun olaraq “İnformasiyanın sənədləşdirilməsi”, “Daxili auditlər”, “Uyğunsuzluqların və təshihedici tədbirlərin idarə edilməsi”, “Risklərin və imkanların idarə edilməsi”, “Rəhbərlik tərəfindən təhlil” və “İstifadəçilərlə əks əlaqələrin idarə edilməsi” sənədləşdirilmiş prosedurlar və “Keyfiyyət üzrə vəsait” təkmilləşdirilmiş, həmçinin Keyfiyyət üzrə Əlaqələndirmə Şurasının və Rəhbərliyin keyfiyyət üzrə nümayəndəsinin əsasnamələrinə əlavə və dəyişikliklər edilmişdir. Bununla yanaşı, “Vahid inteqrəedilmiş metaməlumatların (SİMS 2.0) və onun əsasını təşkil edən keyfiyyət məruzələrinin (ESQRS 2.0) və metaməlumatların (ESMS 2.0) strukturu”, Dövlət Statistika Komitəsində statistik biznes proseslərinin idarə edilməsinin ümumi modelinin altprosesləri üzrə izahlar əlavə olunmaqla “Statistiklər üçün özünüqiymətləndirmə anketi (DESAP)” hazırlanmış, “Avropa Statistika Sisteminin Keyfiyyət Təminatı Strukturu” və “Keyfiyyət üzrə terminlər lüğəti” azərbaycan dilinə tərcümə olunmuşdur.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının səlahiyyət müddəti bitdiyi üçün onun yeni tərkibi Nazirlər Kabinetinin 2016-cı il 15 sentyabr tarixli, 346 nömrəli Qərarı ilə təsdiq edilmiş, Şuranın 17.10.2016-cı il tarixində keçirilmiş ilk iclasında “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi” və “2017-ci il üçün statistik işlər proqramının layihəsi” ilə bağlı məsələlər müzakirəyə çıxarılmışdır.

“Dövlət Statistika Komitəsinin Reqlamenti”nə əlavə və dəyişikliklər Dövlət Statistika Komitəsi kollegiyasının 26.10.2016-cı il tarixli, 9/1 nömrəli qərarı ilə təsdiq edilmiş və Komitənin internet səhifəsində yerləşdirilmiş, “Yerli statistika orqanları tərəfindən şəhər, rayon

və şəhər rayonlarının icra hakimiyyəti orqanlarına təqdim edilən iqtisadi-statistik məlumatlara dair Tövsiyələr" yenidən işlənərək kollegiyanın 26.10.2016-cı il tarixli, 9/2 nömrəli qərarı ilə təsdiq edilmişdir. Yerli statistika orqanlarının fəaliyyətinin təşkili məqsədilə onlar statistik və iqtisadi iş planları, statistik vahidlərə çatdırılması üçün rəsmi statistika hesabatı (müayinə) formaları və metodoloji materiallarla təmin edilmişlər. Eyni zamanda, yerli statistika orqanlarının fəaliyyətlərinə müntəzəm olaraq nəzarət edilmiş, metodoloji məsələlər və işlərin təşkili ilə bağlı onlara əməli kömək göstərilmiş, Dövlət Statistika Komitəsinin "e-sənəd dövriyyəsi-kargüzarlıq" sistemi inkişaf etdirilmişdir.

Metodoloji bazanın möhkəmləndirilməsi 2016-cı ildə də Dövlət Statistika Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olmuş, bir sıra metodoloji material BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmış, yeni metodologiyalar hazırlanmış və tətbiq edilmişdir. Ölkə iqtisadiyyatının xüsusiyyətləri nəzərə alınmaqla statistikanın bütün sahələri və dövlət proqramlarında nəzərdə tutulmuş işlər üzrə 35 metodoloji material hazırlanmış, onlardan 6-sı hesabat formalarının tərtib olunmasına, 29-u isə statistik müayinələrin keçirilməsinə, hesablamaların aparılmasına, göstəricilər sisteminin tərtib olunmasına və digər məsələlərə aid olmuşdur.

Komitə tərəfindən il ərzində hazırlanan metodoloji materiallar milli hesablar və makroiqtisadi göstəricilər, əhali, əmək, energetika, ticarət, qiymət, innovasiya, ekologiya statistikası kimi sahələri, o cümlədən "MHS-2008"-in ÜDM göstəricisinin həcmi, strukturu və artım sürətinə təsir edən amillər nəzərə alınmaqla ÜDM-in yenilənmiş dinamika sıralarının hazırlanması, "MHS-2008" çərçivəsində energetika üzrə köməkçi (satellit) hesabın qurulması, elm, texnologiya və innovasiya statistikasının təkmilləşdirilməsi və innovasiyaların iqtisadiyyata təsirinin ölçülməsi, "İnsan kapitalı"nın statistik öyrənilməsinə dair metodoloji izahatların, statistik göstəricilər sisteminin hazırlanması, "Əmək xərcləri indeksinin hesablanması", "Dövlət sektorunun cari hesablarının qurulmasına dair metodoloji göstəriş", "Yaşıl iqtisadiyyat" üzrə statistik göstəricilər sistemi", "Ev təsərrüfatlarında yanacaqdan istifadə nəticəsində atmosferə atılan çirkləndirici maddələrin və istilik effekti yaradan qazların həcminin hesablanması", "Ətraf mühitin mühafizəsinə çəkilən xərclər və ödənişlər üzrə statistik proseslərin idarə olunması prosesində SBPÜM-in tətbiqi", "Enerji statistikasına dair milli tövsiyələr", "Kiçik sahibkarlıq subyektlərinin işgüzar fəallığı", "İstehlak qiymətləri indeksinin tərkibində yerli və idxal olunan məhsulların qiymət indekslərinin hesablanması", "Pərakəndə ticarət dövriyyəsi indekslərinin hesablanması", "Ticarət fəaliyyəti ilə məşğul olan kiçik sahibkarlıq subyektlərinin işgüzar fəallığı" məsələlərini əhatə edir.

Statistika məlumatlarının keyfiyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə metodoloji materiallarla yanaşı, statistik hesabat formaları da təkmilləşdirilmişdir. Dövlət Statistika Komitəsinin elmi-metodoloji şurasının 2016-cı ildə keçirilmiş 11 iclasında 54 məsələ müzakirə olunmuşdur. İl ərzində 6 yeni rəsmi statistika hesabatı forması təsdiq edilmiş və 21 hesabat formasına yenidən baxılaraq göstəricilərdə dəyişikliklər edilmişdir. Rəsmi statistika hesabatı formalarının sayı 2017-ci il 1 yanvar vəziyyətinə 266 olmaqla, onlardakı göstəricilərin sayı 131421, o cümlədən statistika orqanları tərəfindən icmallaşdırılan formaların sayı 153 və onlardakı göstəricilərin sayı 39513 olmuşdur.

Dövlət Statistika Komitəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun icrasını təmin etmək məqsədilə, təsdiq edilmiş texniki normativ hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrində qeydiyyata alınması üzrə işləri davam etdirmiş və 229 normativ hüquqi akt, o cümlədən hesabat ilində 4

statistika hesabatı forması reyestrə daxil edilmişdir. Ümumilikdə, 01.01.2017-ci il vəziyyətinə 266 hesabat formasından 206-sı və ya 77,4 faizi reyestrə daxil edilmişdir.

Statistik hesabat formaları ilə yanaşı ilkin uçot sənədləri də təkmilləşdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin ölkənin bütün iqtisadi sahələri, o cümlədən kənd təsərrüfatı üzrə statistik uçotun təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq, Dövlət Statistika Komitəsi tərəfindən zəruri islahatlar həyata keçirilmiş, beynəlxalq təcrübə öyrənilərək statistika sisteminin inkişafı istiqamətində müvafiq tədbirlər görülmüşdür. Bu istiqamətdə aparılan irihəcmli işlərdən biri də kənd təsərrüfatı statistikasının təşkili üçün mühüm informasiya mənbəyi olan və kənd yaşayış məntəqələri üzrə hər bir təsərrüfat haqqında geniş məlumat almaq imkanı verən təsərrüfatbaşına uçot sənədlərinin təkmilləşdirilməsi olmuşdur. Belə ki, 1934-cü ildən ciddi dəyişiklik edilmədən tətbiq olunan “Təsərrüfatbaşına kitab” və digər uçot formaları, onların aparılmasına dair göstəriş müasir dövrün tələblərinə uyğun olaraq yenidən işlənmiş, nəticədə göstəricilər sistemləşdirilmiş və bir çox uyğunsuzluqlar aradan qaldırılmışdır. Cari uçot sənədinə torpaqların suvarılması və onlardan istifadə, əhalinin ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyəti olan məhsullar, kənd təsərrüfatı texnikası ilə bağlı yeni bölmələrin, mal-qara və quşların bölgüsünə yeni göstəricilərin əlavə edilməsi əvvəllər seçmə statistika müşahidələri əsasında toplanan, region və ölkə səviyyəsində müxtəlif metodlarla qiymətləndirilən məlumatların indi bütün təsərrüfatlar üzrə ilkin mənbədən əldə edilməsinə imkan verəcəkdir ki, bu da daha dəqiq uçotun aparılmasını təmin edəcəkdir. Yeni təsərrüfatbaşına uçot sənədlərinin tətbiqi ilə bağlı 12-19 may tarixlərində Xırdalan, Quba, Lənkəran, Salyan, Şamaxı, Qəbələ, Şəmkir, Göygöl, Şəki, Bərdə, Yevlax və İmişli şəhərlərində təlimat xarakterli zona müşavirələri keçirilmişdir. Müşavirələrdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin məsul şəxsləri, yerli icra hakimiyyəti başçılarının aidiyyəti müavinləri, kənd inzibati ərazi dairələri üzrə nümayəndələri, yerli statistika orqanlarının rəhbərləri və uçot sənədlərinin aparılmasına məsul olan şəxslər iştirak etmişdir. Tədbirlərdə ölkənin kənd təsərrüfatının inkişafı, bu sahəyə dövlətin qayğısı, statistika sisteminin inkişafı ilə bağlı ölkə Prezidentinin tapşırıqları, kənd təsərrüfatı statistikasının təşkilində təsərrüfatbaşına uçot sənədlərinin tətbiqinin əhəmiyyəti, uçot sənədlərində olan çatışmazlıqlar və onların aradan qaldırılması məqsədilə görülmüş işlər, yeni uçot sənədlərinin əsas istiqamətləri və qarşıda duran vəzifələr haqqında tədbir iştirakçılarına geniş məlumat verilmiş, eyni zamanda uçot sənədlərinin tətbiqi qaydaları konkret nümunələr əsasında izah edilmişdir.

“Dünya Ölkələri Təsnifatı”nın III variantı hazırlanmış, “Cinayətkarlıq üzrə Statistik Məqsədlər üçün Beynəlxalq Təsnifat” tərcümə edilmiş və Azərbaycanın statistika sistemində tətbiqinə dair rəy və təkliflərin bildirilməsi üçün əlaqədar dövlət orqanlarına göndərilmişdir. “Bələdiyyələrin statistik ərazi təsnifatının 2015-ci ilədək qüvvədə olan variantı ilə (2009-cu il nəşri) yeni variantı (2015-ci il nəşri) arasında keçid “açarları” və Dövlət Statistika Komitəsinin məxfi statistik məlumatların qorunması sahəsində siyasəti hazırlanmışdır.

Respondentlərə düşən statistik yükün azaldılması, hesabatların təqdim edilməsi prosedurunun onlar üçün asanlaşdırılması istiqamətində işlər davam etdirilmişdir. Belə ki, statistik vahidlərdən tələb edilən rəsmi sənəd və arayışların sayına, prosedurların sadələşdirilməsi imkanlarına yenidən baxılaraq təhlil aparılmışdır. Statistik vahidlərin Dövlət reyestrinin aktuallaşdırılması üçün statistik vahidlər tərəfindən təqdim edilən bəzi arayışların elektronlaşdırılmasının və yerli statistika orqanlarına gəlmədən prosedurun həyata keçirilməsinin mümkünlüyü nəzərə alınaraq, Komitənin internet səhifəsinin “Rəsmi statistik

hesabatların təqdim edilməsi” bölməsinin “Hesabatların elektron formada təqdim edilməsi sistemi”ndə onların fəaliyyətinin müvəqqəti dayandırılması ilə bağlı arayışın skan olunmuş formada elektron təqdim olunması imkanının (funksiyasının) yaradılması istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Sahibkarların statistika orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və həlli məqsədilə Komitənin internet səhifəsində “Sahibkar üçün 7 sual” rəy sorğusu keçirilmiş, cavablar ümumiləşdirilmiş və sahibkarların rəy və təklifləri təhlil edilmişdir. Bununla yanaşı, sahibkarlarla işlərin müasir texnologiyalar vasitəsilə tənzimlənməsi təmin edilmiş, statistika hesabatlarının siyahısı, onların doldurulma qaydası, hesabatların real vaxt rejimində təqdim edilməsi üçün proqram vasitələri, sahibkarların qüvvədə olan normativ hüquqi aktlar barədə məlumatlandırılması məqsədilə “Sahibkar nəyi bilməlidir” kitabçasının yeni nəşri Komitənin internet səhifəsində yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli “Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında” Fərmanının icrası olaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Apellyasiya Şurası və Şuranın Katibliyi yaradılmış və onların tərkibi təsdiq edilmişdir.

Bundan əlavə, 2016-cı ildə Komitənin fəaliyyəti hüquqi və fiziki şəxslər tərəfindən müxtəlif dövlət qurumlarına təqdim edilən məlumatlar üzrə təkrarçılığın aradan qaldırılmasına, inzibati vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar dövlət qurumları tərəfindən toplanan məlumatların rəsmi statistikada istifadəsinin genişləndirilməsinə, həmin məlumatların Dövlət Statistika Komitəsinin statistik məlumat bazalarına inteqrasiyası ilə bağlı zəruri tədbirlərin görülməsinə də yönəldilmişdir. Bu məqsədlə Dövlət Statistika Komitəsində 11.10.2016-cı il tarixli, 159/t nömrəli əmrlə müvafiq dövlət qurumlarının və Komitənin nümayəndələrindən ibarət 3 işçi qrupu yaradılmışdır.

Statistika sahəsində informasiya texnologiyalarının yüksək səviyyədə tətbiqi, rəsmi statistika hesabatı formalarının hüquqi və fiziki şəxslərdən elektron qaydada toplanması və emalı, proqram təminatlarının işlək vəziyyətdə saxlanılması, statistik məlumat bazalarının idarə edilməsi, bütün statistika proseslərinin elektronlaşdırılması, informasiya təhlükəsizliyinin təminatının yüksəldilməsi kimi mühüm vəzifələrin icrasını təmin etmək məqsədilə 2016-cı ildən Komitənin aparatında İnformasiya texnologiyaları şöbəsi yaradılmışdır.

Statistika məlumatlarının toplanmasında, emalında və yayılmasında istifadə olunan informasiya texnologiyalarının tətbiqi imkanlarının genişləndirilməsi, statistik informasiya sisteminin inkişaf etdirilməsi üçün bir sıra işlər görülmüş, hesabat məlumatlarının respondentlər tərəfindən elektron formada, yerli statistika orqanlarına gəlmədən təqdim edilməsi üçün zəruri tədbirlər həyata keçirilmiş və nəticədə rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulu 95,0 faizə çatdırılmış, statistik hesabatları elektron formada internet vasitəsilə təqdim etmək üçün il ərzində 2025,3 min müraciət daxil olmuş, bununla da vətəndaş-məmur təmaslarının səviyyəsi minimuma endirilmiş, eyni zamanda statistik məlumatların işlənməsi və təhlili imkanları yüksəlmişdir.

Hüquqi və fiziki şəxslərin yaradılması və ləğvi ilə bağlı Vergilər Nazirliyindən daxil olmuş məlumatlar əsasında statistik vahidlərin Dövlət reyestrinin aktuallaşdırılması və onun statistik işlər üçün aktual vəziyyətdə saxlanması mütəmadi olaraq davam etdirilmişdir. 2017-ci il yanvarın 1-i vəziyyətinə reyestrdə hüquqi şəxslərin sayı 107,3 min, fiziki şəxslərin sayı isə 685,4 min olmuşdur.

Dövlət Statistika Komitəsi tərəfindən il ərzində “Əhalinin iqtisadi fəallığı”, “Ölkənin əmək bazarında qeyri-rəsmi əmək fəaliyyəti ilə məşğul olan əhalinin sayının qiymətləndirilməsi”, “Valideyn himayəsindən məhrum olmuş uşaqların, uşaq evlərini və internat məktəblərini məzun olaraq bitirmiş gənclərin işlə və yaşayış sahəsi ilə təmin edilməsi səviyyəsinin öyrənilməsi”, “Gənclərin, həmçinin xaricdə, o cümlədən “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində təhsil alıb Azərbaycana qayıdan gənclərin işlə təmin olunması”, “Fərdi sahibkar tərəfindən enerji məhsullarının istehlakı”, “Ev təsərrüfatında enerji məhsullarının istehlakı”, “Ev təsərrüfatlarında informasiya-kommunikasiya texnologiyalarından istifadə”, “Daxili turizm”, “Ölkə sərhədlərini keçən Azərbaycan və xarici ölkə vətəndaşları”, “Meşə fondu və sair torpaqlarda meşə məhsullarının tədarükü”, “Arıçılıq məhsullarının istehsalı”, “Ticarət sahəsində fəaliyyət göstərən fiziki şəxslər üzrə” seçmə statistik müayinələr keçirilmiş, zəruri məlumatlar əldə edilmişdir.

Statistik məlumatların toplanmasının təşkilində informasiya-kommunikasiya texnologiyalarından istifadə keyfiyyətcə yeni səviyyəyə qalxmış, yoxsulluğun və inflyasiyanın statistik ölçülməsi üsullarının təkmilləşdirilməsi məqsədilə yerli statistika orqanlarında ev təsərrüfatları büdcələrinin tədqiqatını həyata keçirən 119 əməkdaş, istehlak qiymətlərinin qeydiyyatını aparan 89 qeydiyyatçı planşet tipli kompüterlərlə və internetə fasiləsiz çıxışla təmin edilmiş, bununla da ev təsərrüfatları büdcələrinin tədqiqatı, ərzaq, qeyri-ərzaq məhsullarının və xidmətlərin qiymətlərinin qeydiyyatı üzrə statistik müşahidələrin real vaxt rejimində aparılmasına və məlumatların Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına birbaşa daxil edilməsinə nail olunmuş, hazırlanmış proqram təminatları vasitəsilə məlumatların qəbulu zamanı yaranan xətaların aşkar edilməsi və vaxtında aradan qaldırılması mümkün olmuşdur.

Dövlət Statistika Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri də statistik məlumat istifadəçilərinin tələbatının ödənilməsi olmuşdur. Bu məqsədlə 2016-cı ildə 34 statistik məcmuə (“Azərbaycanın statistik göstəriciləri”, “Azərbaycan rəqəmlərdə”, “Müstəqil Azərbaycan-25 il”, “Azərbaycanın əhalisi”, “Azərbaycanın demoqrafik göstəriciləri”, “Azərbaycanda uşaqlar”, “Azərbaycanda qadınlar və kişilər”, “Azərbaycan gəncləri”, “Dövlət qulluqçuları”, “Əmək bazarı”, “Yeni iş yerləri”, “Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar”, “Azərbaycanda təhsil, elm və mədəniyyət” , “Azərbaycanda səhiyyə, sosial təminat və mənzil şəraiti”, “Azərbaycanın milli hesabları”, “Azərbaycanda qiymətlər”, “Azərbaycanda ətraf mühit”, “Azərbaycanın energetikası”, “Azərbaycanda turizm”, “Azərbaycanın nəqliyyatı”, “Azərbaycanda telekommunikasiya və poçt”, “Azərbaycanda informasiya cəmiyyəti”, “Azərbaycanın sənayesi”, “Azərbaycanda tikinti”, “Azərbaycanda kiçik sahibkarlıq”, “Azərbaycanın kənd təsərrüfatı”, “Meşəçilik, balıqçılıq və ovçuluq təsərrüfatları”, “Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri”, “Azərbaycanın ərzaq balansları”, “Azərbaycanda ticarət”, “Azərbaycanın xarici ticarəti”, “Azərbaycanın regionları”, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda və “Bakı şəhərinin və onun qəsəbələrinin 2014-2016-cı illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin icrası”), “Azərbaycan - faktlar və rəqəmlər” bukleti, “Statistik nəşrlərin kataloqu”, rüblük “Təhlil məruzələri” toplusu, “İnfoqrafika 2016” nəşri, ölkənin sosial-iqtisadi inkişafı haqqında aylıq məruzələr, “Statistik icmal” və “İqtisadi rayonların sosial, iqtisadi göstəriciləri” bülletenləri çap edilərək istifadəçilərə çatdırılmış, məktəblilər üçün “Statistika nədir” və tələbələr üçün “Bunları bilmək maraqlıdır” kitabçaları da nəşr etdirilərək təhsil müəssisələrinə paylanmışdır. Bununla

yanaşı, bütün yerli statistika orqanları tərəfindən də rayon və şəhərlər üzrə statistik məcmuələr nəşr edilmişdir.

Ölkə və onun regionları üzrə sosial-iqtisadi vəziyyəti əks etdirən statistik məlumatların təhlil edilməsi, icmal məlumatların idarəetmə orqanları və digər istifadəçilərə çatdırılması məqsədilə aparatın sahə şöbələri və yerli statistika orqanları tərəfindən 2735 təhlili məruzə, 80 ekspres-məlumat və 67 mətbu-məlumat hazırlanmışdır.

2015-ci ilin iyun ayında ölkədə keçirilmiş kənd təsərrüfatı siyahıyaalınmasının məlumatlarının işlənməsi başa çatdırılmış, onun nəticələri üzrə 13 cildlik məcmuə hazırlanmışdır.

Statistik məlumat əldə etmək istəyənlərin müraciətlərinə operativ baxılması məqsədilə yaradılmış “qaynar telefon xətti” fəaliyyətini davam etdirmiş, bununla yanaşı, şifahi müraciətlərin qəbulunu təmin etmək üçün xüsusi telefon xətti ayrılmışdır.

Dövlət Statistika Komitəsinə il ərzində daxil olmuş müxtəlif strategiyaların, dövlət proqramlarının, qanunvericilik aktlarının və digər normativ hüquqi aktların layihələri ilə bağlı rəy və təkliflər hazırlanaraq aidiyyəti üzrə göndərilmiş, statistik məlumat əldə etmək məqsədilə ölkənin kütləvi informasiya vasitələrindən, mərkəzi icra hakimiyyəti orqanlarından, yerli və xarici təşkilatlardan, elm müəssisələrindən, ali məktəb tələbələrindən və digər istifadəcilərdən, o cümlədən statistik informasiya dəstəyi ilə bağlı 21 qeyri-hökumət təşkilatından daxil olmuş sorğular cavablandırılmışdır.

Komitənin internet səhifəsi (www.stat.gov.az) istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, məlumat bazaları əsas sosial-iqtisadi göstəricilər üzrə 12 minə yaxın cədvəli, təhlil və metodoloji materialları əhatə etmişdir. 01.01.2017-ci il vəziyyətinə məlumatlar bazası da daxil olmaqla, səhifənin məlumat həcmi 50 Gb təşkil etmişdir. 2016-cı ildə internet səhifəsindən hər gün orta hesabla 2500 istifadəçi bəhrələnmişdir. Veb səhifəyə il ərzində 1760,9 min daxilolma qeydə alınmışdır ki, onların da 1600,9 minini yerli, qalan hissəsini isə xarici ölkələrdən daxilolmalar təşkil etmişdir.

Statistika üzrə yenilənmiş metodologiyalar barədə məlumatlar da internet səhifədə yerləşdirilmiş, “Regionların statistik portreti” xəritəsinə abunə olmaq istəyənlər üçün internet səhifədə yeni pəncərə yaradılmışdır. İstifadəçilər üçün yaradılmış “Mənim səhifəm” bölməsində yayımı həyata keçirilən mətbu məlumatlara da elektron abunə yazılışı imkanını verən (1-ci mərhələ) abunə səhifəsi açılmışdır. “Mənim səhifəm” bölməsi vasitəsilə istifadəçilərin istəklərinə uyğun onların özləri tərəfindən statistik məlumatlar əsasında cədvəllər tərtib edilərək səhifədə saxlamaq, istədikləri vaxtda onlara baxmaq və çap etmək imkanlarının yaradılması (2-ci mərhələ) və səhifədə yadda saxlanılan məlumatların illər üzrə yayılan növbəti məlumatlar əsasında avtomatik aktuallaşdırılmasının təmin edilməsi (3-cü mərhələ) istiqamətlərində müvafiq işlər həyata keçirilir.

Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış mətbu məlumatların kütləvi informasiya vasitələrində dərc etdirilməsi davam etmiş, bu məlumatlar, habelə sosial-iqtisadi inkişafa dair aylıq məruzələr, statistik məcmuələr, Komitədə keçirilən görüşlər haqqında xülasələr, beynəlxalq tədbirlərdə iştirak edən əməkdaşların hesabatları, mətbu məlumatların yayılması təqvimləri Komitənin veb səhifəsində yerləşdirilmiş, mütəmadi olaraq veb səhifənin və kütləvi informasiya vasitələrində Dövlət Statistika Komitəsinə istinadən yayılan məlumatların monitorinqi aparılmışdır.

Məlumat istifadəçiləri ilə işin daha keyfiyyətli və mütəşəkkil şəkildə qurulması məqsədilə statistik məlumatların elektron kütləvi informasiya vasitələri ilə yayımlanmasına, radio və televiziya kanallarında çıxışlara xüsusi diqqət yetirilmiş, Komitənin rəhbərliyi və əməkdaşları

müxtəlif televiziya kanallarında və mətbu orqanlarında ölkə iqtisadiyyatının inkişafı, statistika sistemində aparılan islahatlarla bağlı vaxraşırı müsahibələr vermişlər.

"2016-cı il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planı"na uyğun olaraq, metodoloji, təhlil və digər məsələlərlə bağlı statistik məlumat istifadəçilərinin (müxtəlif nazirlik, komitə, digər təşkilat, informasiya agentlikləri və KİV nümayəndələrinin) iştirakı ilə Komitədə əhali, gender, energetika və ətraf mühit, əhalinin həyat səviyyəsi, milli hesablar, kənd təsərrüfatı, ticarət, turizm statistikası, istehlak qiymətləri indeksinin hesablanması mövzularına həsr olunmuş seminar-görüşlər keçirilmişdir. Ümumilikdə, il ərzində Komitədə 166 nəfər istifadəçinin iştirakı ilə 12, yerli statistika orqanları tərəfindən isə 2313 istifadəçinin iştirakı ilə 827 görüş keçirilmişdir.

Komitənin 2015-ci ildə təsis etdiyi "Statistika xəbərləri" elmi-praktik jurnalının rüblük dövriliklə nəşri davam etdirilmiş və 2016-cı ildə 4, ümumilikdə isə jurnalın 5 nömrəsi buraxılmışdır. Digər tədqiqatçılarla yanaşı, Dövlət Statistika Komitəsinin, Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin əməkdaşlarının, o cümlədən gənc mütəxəssislərin 13 məqaləsi "Statistika xəbərləri" elmi-praktik jurnalında dərc olunmuşdur.

İstifadəçilərlə əlaqələrin daha geniş şəkildə qurulması, təkmilləşdirilməsi və onların statistik məlumatlarla təminatının daha da yaxşılaşdırılması məqsədilə Komitənin veb-səhifəsində daim aktiv olan onlayn sorğu keçirilmişdir. Sorğuda 2909 nəfər iştirak etmişdir ki, bu da əvvəlki ildəkindən 845 nəfər çoxdur. Sorğunun nəticələri ümumiləşdirilmiş, təhlil edilmiş və Komitənin internet səhifəsində yerləşdirilmişdir.

Dövlət Statistika Komitəsində fəaliyyət göstərən kitabxana fondundan il ərzində 1584 oxucu istifadə etmiş, kitab və məcmuələrin elektron forması Komitənin internet səhifəsində yerləşdirilmişdir.

Oktyabrın 20-də Komitədə təşkil edilmiş elmi-praktiki konfransda "Gəncə-Qazax iqtisadi rayonunda əsas kapitala investisiya qoyuluşu və əmək qüvvəsinin sosial-iqtisadi vəziyyətə təsir imkanları", "İnsan kapitalı: mahiyyəti və ölçülmə üsulları", "Rəsmi statistikanın inkişaf perspektivləri", "Çoxölçülü statistik təhlil əsasında yoxsulluğun müəyyənləşdirilməsi", "Azərbaycanda gender statistikası", "Ticarət statistikasının inkişafı", "Atmosferə atılan istilik effekti yaradan qazlar", "Tikinti statistikası sahəsində əsas sosial-iqtisadi göstəricilər", "Göl və nohur balıqçılığı statistikasının təkmilləşdirilməsi", "Sosial statistika haqqında", "İqtisadi inkişaf və ətraf mühit münasibətlərinin modelləşdirilməsi: Azərbaycan nümunəsi", "Turizm statistikasının inkişafı və ona tələbat" mövzuları üzrə təqdim olunmuş məqalələr müzakirə edilmişdir.

Statistik keyfiyyətin idarə olunması sisteminin və coğrafi informasiya sistemi vasitəsilə statistik məlumatların yayılmasının, əhalinin gəlirləri və həyat şəraiti, əlillik, turizm sahələrində rəsmi statistik məlumatların təkmilləşdirilməsi məqsədilə həyata keçirilən və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılmasında Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə dəstək" adlı Tvinninq layihəsi üzrə 2016-cı il üçün nəzərdə tutulmuş işlər uğurla icra olunmuşdur. Statistika sahəsində inzibati və texniki potensialın, milli statistikanın beynəlxalq standartlara uyğunluğu baxımından inkişaf səviyyəsinin qiymətləndirilməsi məqsədilə 2016-cı il 12-16 sentyabr tarixlərində Avropa Statistika Bürosu (Avrostat), BMT-nin Avropa İqtisadi Komissiyası (BMT AİK) və Avropa Azad Ticarət Assosiasiyası (AATA) tərəfindən keçirilmiş Azərbaycan Respublikası Milli Statistika Sisteminin Qlobal Qiymətləndirilməsi (xarici auditi) üzrə hesabatda ölkəmizin statistika sisteminin Avropa standartlarına uyğun olduğu rəsmən təsdiqlənmişdir.

Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərin təşkili sahəsində də təkmilləşdirmə işləri aparılaraq elektron xidmətlərdən istifadə qaydaları barədə təlimatlar yenidən işlənmiş, elektron xidmətlər üzrə yeni bildiriş formaları hazırlanaraq onların avtomatik rejimdə sorğu edən şəxslərə göndərilməsi tam təmin edilmişdir. Bununla yanaşı, bütün elektron xidmətlərin mobil versiyaları hazırlanaraq Komitənin veb səhifəsinin mobil variantında yerləşdirilmiş və "Elektron hökumət" portalına inteqrasiya olunmaqla tam fəaliyyət göstərmişdir. Eyni zamanda, sözügedən elektron xidmətlərə dair inzibati reqlamentlərin təkmilləşdirilməsi ilə bağlı müvafiq işlər həyata keçirilmiş, nəticədə, "ASAN" xidmətin qiymətləndirməsinə əsasən, Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlər yüksək ballarla qiymətləndirilmişdir. Belə ki, "Rəsmi statistik hesabatların təqdim edilməsi" elektron xidməti 26 mümkün baldan 24 balla, "Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi" elektron xidməti 24 mümkün baldan 24 balla, "Statistik nəşrlərin (kitabların) onlayn satışı" elektron xidməti 24 mümkün baldan 22 balla və "Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi" elektron xidməti 19 mümkün baldan 19 balla, yəni "əla", "Statistik məlumatların (göstəricilərin) verilməsi" elektron xidməti isə 24 mümkün baldan 21 balla, yəni "yaxşı" qiymətləndirilmişdir.

Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərin "Elektron hökumət" portalı vasitəsilə təqdimatına dair vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədi ilə Komitənin internet səhifəsinin "E-xidmətlər" bölməsində bu xidmətlər haqqında ətraflı məlumatlar yerləşdirilmiş, "Facebook" sosial şəbəkəsində Dövlət Statistika Komitəsinin səhifəsi yaradılmış və onun aktiv fəaliyyəti təmin edilmişdir.

Eyni zamanda, Komitədə keçirilən mətbuat konfranslarında və istifadəçilərlə görüşlərdə Dövlətstatkom tərəfindən göstərilən elektron xidmətlər haqqında geniş məlumat verilmiş, iştirakçıların sualları cavablandırılmışdır.

BMT Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli A/RES/70/1 saylı qətnaməsi ilə qəbul edilmiş və gələcək 15 il müddətinə insan inkişafı üçün zəruri olan 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın dəyişdirilməsi: Dayanıqlı inkişaf üzrə gündəlik-2030"un icrası ilə əlaqədar milli statistik potensialın gücləndirilməsi və informasiya bazasının genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, aparılan struktur islahatları çərçivəsində Dövlət Statistika Komitəsinin aparatında 2016-cı ildən Dayanıqlı inkişaf statistikası şöbəsi fəaliyyətə başlamışdır. "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli Fərmanından irəli gələn vəzifələrin icrası olaraq qlobal məqsəd və hədəflərə nail olmaq üçün müəyyən edilmiş göstəricilərin Azərbaycanın rəsmi statistikasında mövcudluq vəziyyəti təhlil edilmiş, tələb olunan 230 göstəricidən Azərbaycanın rəsmi statistikasında 70-i üzrə məlumat mənbəyi müəyyənləşdirilmiş, qalan göstəricilər üzrə məlumatların aidiyyəti dövlət orqanları ilə birgə əldə edilməsi üçün müəyyən işlər görülmüş, bir sıra ölkələrin qabaqcıl təcrübələri öyrənilmiş, dayanıqlı inkişaf statistikasının təşkili ilə bağlı digər tədbirlər həyata keçirilmişdir.

2016-cı ildə kadr potensialının gücləndirilməsinə də xüsusi önəm verilmiş, Dövlət Statistika Komitəsi tərəfindən elan edilmiş müsabiqə və müsahibələrdə uğur qazanmış namizədlər müvafiq inzibati vəzifələrə işə qəbul olunmuş və nəticədə Komitə aparatının işçi heyətinin 30 faizi İKT sahəsində bilik və bacarıqlara malik olan, xarici dilləri bilən gənclərlə yenilənmişdir.

Komitənin 12 gənc mütəxəssisi Bolqarıstan Milli Statistika İnstitutunun "Slivek" Təlim və İxtisasartırma Mərkəzində təşkil olunmuş 10 günlük təlim kursunda iştirak etmiş, yerli statistika orqanlarının mütəxəssisləri üçün "Fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən enerji məhsullarının istehlakı haqqında" seçmə statistika müşahidəsinin keçirilməsi məsələləri", "Əhalinin iqtisadi fəallığı"na dair müayinə və əmək statistikası ilə bağlı digər məsələlər", "Metodoloji yeniliklərlə tanışlıq və işdə buraxılan səciyyəvi nöqsanların təhlili", "Keyfiyyətin idarə edilməsi sisteminin İSO 9001:2015 standartına keçidi və qarşıda duran məsələlər", "2016-cı ilin məhsulu üçün kənd təsərrüfatı bitkiləri əkinlərinin qəti uçotu və kənd təsərrüfatı statistikasına aid digər məsələlər", "İstehlak və istehsalçı qiymətlərinin müşahidəsinin təşkili", "İstehlak və istehsalçı qiymətlərinin qeydiyyatının nəzəri və praktiki tərəfləri ilə bağlı məsələlər", "Mənzil şəraiti statistikasının aparılmasına dair məsələlər", "Təhsil statistikası üzrə hesabatların işlənməsi", "Ticarət və turizm statistikası üzrə göstəricilərin əldə edilməsi və işlənməsi" mövzularına həsr edilmiş regional seminarlar keçirilmişdir. Bundan əlavə, yerli statistika orqanları işçilərinin bilik və peşəkarlıq səviyyəsinin artırılması, onlara yeni iş metodlarının öyrədilməsi məqsədilə 21 rayon (şəhər) statistika idarəsinin (şöbəsinin) mütəxəssisinin Komitə aparatının müvafiq şöbələrində, Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzində təcrübə keçməsi təşkil olunmuşdur.

Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti çərçivəsində TAIEX proqramı üzrə dekabr ayında Bakıda Dövlət Statistika Komitəsinin əməkdaşları üçün Ekoloji-iqtisadi uçot sisteminin tətbiqi ilə əlaqədar seminar təşkil edilmiş, Avstriya və Danimarkanın milli statistika təşkilatlarının mütəxəssisləri seminarda iştirak etmişlər.

Statistika elminə marağın artırılması, gələcəkdə statistika sisteminə yüksək ixtisaslı elmi kadrların cəlb edilməsini təmin etmək məqsədilə Dövlət Statistika Komitəsinin təşəbbüsü ilə iqtisadi statistika ixtisası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 25 iyul tarixli 284 nömrəli qərarı ilə ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların siyahısına daxil edilmişdir.

Maddi-texniki bazanın möhkəmləndirilməsi, yerli statistika orqanları işçilərinin iş şəraitinin yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülmüş, kompüter texnikası, serverlərin təhlükəsiz və davamlı işini təmin edən avadanlıqlar, standart proqram təminatları, antivirus proqram lisenziyaları alınaraq quraşdırılmış, Füzuli və Oğuz rayon statistika idarələri üçün yeni inşa edilmiş müasir inzibati binalar istifadəyə verilmiş, Masallı Rayon Statistika İdarəsinin inzibati binası əsaslı təmir olunmuşdur. Bununla yanaşı, maliyyə vəsaitinin ayrılmaması səbəbindən Dövlət Proqramında nəzərdə tutulmuş bəzi tədbirlərin, o cümlədən Bakı Şəhər Statistika İdarəsinin inzibati binasının inşasının başa çatdırılması, Şamaxı, Zərdab və Göygöl rayon statistika idarələrinin inzibati binalarının tikintisi mümkün olmamışdır. Bu barədə Komitə tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, İqtisadiyyat və Maliyyə nazirliklərinə məlumat verilmişdir.

Rəsmi statistikanın beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi zəruriliyi nəzərə alınaraq, beynəlxalq əməkdaşlıq 2016-cı ildə Dövlət Statistika Komitəsinin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmiş, bu sahədə işlərin daha da intensivləşdirilməsi məqsədilə Dövlət Statistika Komitəsinin aparatında Beynəlxalq əlaqələr şöbəsi yaradılmış, BMT və onun regional təşkilatları, Avropa İttifaqı, BVF, BƏT, YUNİSEF, YUNESKO, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İƏT, Avrostat, MDB Dövlətlərarası Statistika Komitəsi və bir sıra digər beynəlxalq təşkilatlarla, habelə dünya ölkələrinin milli statistika xidmətləri ilə qarşılıqlı məlumat mübadiləsi aparılmış, daxil olan sorğular cavablandırılmışdır. Beynəlxalq əməkdaşlıq sahəsində əsas vəzifələr milli

metodologiyaların beynəlxalq standartlara uyğunlaşdırılması, təcrübə mübadiləsinin aparılması, inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiqindən, habelə beynəlxalq məlumat portallarında Azərbaycan Respublikasına aid statistik məlumatların yoxlanılmasından, aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması istiqamətində aidiyyəti beynəlxalq təşkilatlarla və onların Azərbaycandakı nümayəndəlikləri ilə işlərin təşkilindən ibarət olmuşdur.

"Milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılmasında Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə dəstək" adlı Tvinninq layihəsinin başlanması ilə bağlı konfransda iştirak etmək üçün Bakıya səfər etmiş Avropa İttifaqı tərəfindən layihə tərəfdaşları olan qurumların rəhbərləri - Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayter və Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarski yanvar ayının 27-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmişlər. Sözügedən layihə çərçivəsində Dövlət Statistika Komitəsi mütəxəssislərinin Almaniya Federal Statistika İdarəsinə, Bolqarıstan Milli Statistika İnstitutuna, Sloveniya Statistika İdarəsinə və Niderland Mərkəzi Statistika Bürosuna ümumilikdə 8 təlim səfəri, eyni zamanda 27 iyun – 1 iyul tarixlərində Komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin statistika sistemində idarəetmə potensialına dair təcrübə mübadiləsinin aparılması və iki qurum arasında imzalanmış saziş çərçivəsində əməkdaşlığın inkişafı, gələcək hədəflərin müəyyən edilməsi, məlumat mübadiləsinin genişləndirilməsi məqsədilə Bolqarıstan Milli Statistika İnstitutuna səfəri təşkil edilmişdir. Səfər zamanı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Bolqarıstan Respublikasının Milli Statistika İnstitutu arasında imzalanmış 02.12.1999-cu il tarixli saziş çərçivəsində 2016-2018-ci illər üçün statistika sahəsində növbəti əməkdaşlıq planı təsdiq edilmişdir. Səfər çərçivəsində Komitə sədri Bolqarıstan Respublikasının Baş nazirinin birinci müavini Rumyana Bıçvarova, Bolqarıstan Milli Assambleyasının vitse-prezidenti, Azərbaycan-Bolqarıstan parlamentlərarası dostluq qrupunun üzvü Aliosman İmamov və Bolqarıstan Elmlər Akademiyasının İqtisadi Araşdırmalar İnstitutunun direktoru Aleksandr Tasevlə görüşlər keçirmişdir.

2016-cı ildə Tvinninq layihəsi çərçivəsində Avropa İttifaqına üzv olan dövlətlərin statistika qurumlarının mütəxəssisləri Dövlət Statistika Komitəsinə 18 ekspert səfəri etmiş, eyni zamanda layihə idarəetmə komitəsinin 4 iclası keçirilmişdir.

Dövlət Statistika Komitəsinin sədri mart ayında Nyu-Yorkda BMT-nin Statistika Komissiyasının 47-ci sessiyasında iştirak etmişdir. Tədbirdə müzakirə olunan əsas məsələ BMT Baş Assambleyasının müvafiq qərarına uyğun olaraq 2000-2015-ci illər üçün nəzərdə tutulmuş "Minilliyin inkişaf məqsədləri"nin icrası zamanı dünya ölkələri tərəfindən əldə edilmiş təcrübə əsasında BMT tərəfindən yaradılmış ekspert qrupunun hazırladığı "Dayanıqlı inkişaf üzrə gündəlik – 2030"un məqsəd və hədəflərinə nail olunmasına statistik dəstək sənədi olmuşdur. Sənəddə 2015-2030-cu illər üzrə həyata keçiriləcək fəaliyyətlərin qiymətləndirilməsi zamanı beynəlxalq müqayisəliliyi təmin edə biləcək statistik göstəricilər sisteminin formalaşdırılmasının aktuallığı ön plana çəkilmişdir. Eyni zamanda, tədbirdə rəsmi statistikada islahatlar proqramına dair konsepsiya, irihəcmli məlumatlardan rəsmi statistikada istifadə olunması, MHS sahəsində statistik potensialın gücləndirilməsi, Ekoloji-iqtisadi uçot, beynəlxalq statistik təsnifatlar, sənaye, İKT və qaçqınlar statistikası ilə bağlı məsələlər, Dünya Bankı tərəfindən təqdim edilmiş məruzə müzakirə edilmişdir.

Dövlət Statistika Komitəsinin sədri tədbirdə qaçqınlar statistikası ilə bağlı məruzə etmiş, bu məsələnin sessiyanın gündəliyinə daxil edilməsinin Azərbaycan tərəfindən də dəstəkləndiyini və bu barədə BMT-nin Statistika şöbəsinə rəsmi müraciət edildiyini qeyd

etmiş, "Azərbaycanda qaçqınlar və məcburi köçkünlərlə bağlı statistikanın təşkili" adlı xüsusi buklet sessiya iştirakçılarına paylanmışdır. Sessiya dövründə Komitənin sədri BMT-nin Statistika Şöbəsinin direktoru, Avrostatın beynəlxalq əməkdaşlıq və resurslar direktorluğunun rəhbəri, İslam Ölkələrinin Statistika, İqtisadiyyat və Sosial Tədqiqat Mərkəzinin (SESRIC) direktoru, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri və bir sıra ölkələrin milli statistika qurumlarının rəhbərləri ilə görüşlər keçirmişdir.

Komitənin sədri həmçinin dekabr ayında Banqkok şəhərində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) Statistika Komitəsinin 5-ci və Statistika İnstitutunun Rəhbər Şurasının 12-ci sessiyalarında, Avrostat və UNESCAP tərəfindən birgə təşkil olunmuş "Dayanıqlı inkişaf göstəricilərinin tələblərinə cavab vermək üçün statistika sistemlərinin gücləndirilməsi"nə dair seminarda iştirak etmiş, səfər çərçivəsində BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının Statistika Komitəsinin məsul şəxsləri və bir sıra ölkələrin milli statistika orqanlarının rəhbərləri ilə görüşlər keçirmişdir.

Bunlarla yanaşı, Komitənin sədri Türkiyə, Ukrayna və Meksikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri, Türkmənistan Məclisi sədrinin müavininin başçılıq etdiyi nümayəndə heyəti, Ukraynanın Statistika, Uçot və Audit Milli Akademiyasının rektoru, eləcə də xarici ölkələrin və beynəlxalq təşkilatların yerli və regional nümayəndəliklərinin, o cümlədən Beynəlxalq Valyuta Fondunun Azərbaycan, Yaxın Şərq və Mərkəzi Asiya üzrə departamentinin, BMT-nin Azərbaycan üzrə rezidentliyinin və İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəliyinin, Dünya Bankının, UNİCEF-in, BMT Əhali Fondunun (UNFPA), BMT-nin İnkişaf Proqramının İstanbul Regional Mərkəzinin Dayanıqlı İnkişaf üzrə Qrupunun, BMT-nin Asiya və Sakit Okean Ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının rəhbərləri və nümayəndələri ilə görüşlər keçirmiş, qeyd olunan qurumlarla əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparmışdır.

Noyabr ayında Dövlət Statistika Komitəsində UNİCEF-in Azərbaycan Respublikasındakı Nümayəndəliyi ilə "2016-2017-ci illəri əhatə edən dövr üçün sağlamlıq imkanları məhdud olan uşaqlara və uşaq məhrumiyyətlərinə dair statistikanın təkmilləşdirilməsi" ilə bağlı birgə İş Planı imzalanmışdır.

Dövlət Statistika Komitəsinin 79 əməkdaşı müxtəlif beynəlxalq təşkilatlar tərəfindən təşkil edilmiş 72 tədbirdə iştirak etmiş, Komitənin mütəxəssisləri beynəlxalq ekspert və işçi qruplarının tərkibində fəaliyyətlərini davam etdirmişlər. Eyni zamanda, İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Treninq Mərkəzi (SESRIC) tərəfindən Qırğızıstanda və Qazaxıstanda təşkil edilmiş yoxsulluq və informasiya cəmiyyəti statistikasına dair seminarlarda Komitənin əməkdaşları təlimçi qismində iştirak etmişlər.

Yekun olaraq qeyd edilməlidir ki, Dövlət Statistika Komitəsi ölkə rəhbərliyi tərəfindən statistika orqanları qarşısında qoyulmuş vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə əsasən nail olmuş və 2017-ci ildə də bu istiqamətdə öz səylərini əsirgəməyəcəkdir.